467:1.QXD 23.01.2022 1:08 Page 1

www.arsivakurdi.org

KÜRD DİPLOMAT

KÜRD xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

№ 03 (467) 17-23 Yanvar, Çileya paş, İl-Sal 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: Hêjaye: 40 qəpik

# 20 yanvar-Ümumxalq hüzn günüdür



Səh. 2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər



Səh. 4

QANLI YANVAR DEYİL, ŞANLI YANVAR –AZADLIQ DASTANI



Səh. 9

Serok Barzanî: Jidestdana Şêx Şamo ziyaneke mezin e



Səh. 12

Neçirvan Barzani: Sorunların çözümü için federalizmin pekişmesi gerek!



Səh. 5

Qəhrəmanlıq və iftixar tariximiz



Səh. 5

Dövlətimizin başçısının Zəngəzurun tarixi barədə fikirləri Azərbaycanın bu məsələdə mövqeyi ilə bağlı ermənilərə çox mühüm mesaj oldu



Səh. 13

Civîna encûmena wezîrên Herêma Kurdistanê pêkhat

Rayonlarımızda 20 Yanvar faciəsi anıldı Səh. 3

TEV-DEM: Divê dewleta Tirk ji herêmên dagirkirî vekişe Səh. 10

Qafqazda Şəddadi Kürd dövləti Səh. 6

Bijartina dersa kurdî dê rêya mafê perwerdeya bi zimanê kurdî xweştir Səh. 11

PKK hejmarekî zêde çek ji Sûriyê vediguhêze nav sînorên Iraqê û guman heye bifroşê zSəh. 9

KOMARA KURDISTANA MAHABADÊ BERÎYA 76 SALAN DI 22-01-1946-AN DA LI MAHABADÊ HATIBÛ DAMEZIRANDINÊ Səh. 15



Səh. 7

Şəhidlər



Səh. 14

Ekrem Îmamoglu: Hêvî dikim welatiyên kurd dersa kurdî hilbijêrin



Səh. 7

“20 Yanvar müstəqilliyimizin Şəhidlik zirvəsidir



Səh. 13-16

AZADLIĞA GEDƏN YOL

467:1.QXD 23.01.2022 0:57 Page 2



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər



Qanlı 20 Yanvar faciəsindən 32 il ötür. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad etdilər.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

* * *

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin həm



faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ulu öndər Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ümummilli Lider böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

Həmin faciəli günlərdən artıq 32 il keçir. Ulu Öndərimizin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü - yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bəyan etdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş siyasi əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul olunmuş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndər Heydər Əliyev "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 20 Yanvar əlilləri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.




Bu gün ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoyaraq torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaratdı. İndi həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir.

www.arsivakurdi.org

467:1.QXD 23.01.2022 0:57 Page 3
www.arsivakurdi.org



# Daşkəsəndə 20 Yanvar faciəsinin ildönümü münasibətilə rayon Şəhidlər Xiyabani ziyarət edilib




Yanvarın 20-si – Ümumxalq Hüzn Günündə qarlı və sərt şaxtalı havada edilən ziyarətdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid valideynləri, qazilər, ictimaiyyət nümayəndələri və sakinlər iştirak ediblər.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin adından Şəhidlər Xiyabanındakı əbədi məşəlin önünə əklil qoyulub, Birinci və İkinci Qarabağ müharibələri zamanı torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş igid daşkəsənlilərin məzarları üzərinə qərənfillər düzülüb.

Əhəd Abıyev vurğulayıb ki, Azərbaycan xalqının qürur mənbəyinə çevrilmiş 20 Yanvar faciəsindən 32 il keçməsinə baxmayaraq, həmin hadisə təkcə Ümumxalq Hüzn Günü kimi deyil, eyni zamanda, xalqımızın öz azadlığı uğrunda mübarizliyini, məğrurluğunu nümayiş etdirən qəhrəmanlıq tarixi kimi qeyd olunur.

Daha sonra Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev rayonun şəhid ailələri, Qarabağ müharibəsi əliləri və iştirakçıları, ağsaqqallar və veteranlarla görüşüb, onların qayğıları ilə maraqlanıb, aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Sumqayıtda 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib



Azərbaycan xalqının qan yaddaşına qəhrəmanlıq günü kimi əbədi həkk olunan 20 Yanvar faciəsindən 32 il ötür. Ümumxalq Hüzn Günü Sumqayıt şəhərində qeyd olunub.

Şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələrinin qoyulması ilə başlayan anım mərasimində faciə qurbanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib

Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılan "Qalib Əsgər" abidəsini və Vətənimizin qəhrəman övladlarının məzarlarını ziyarət ediblər.

1990-cı ilin yanvar hadisələri zamanı, Sumqayıt-Bakı magistral yolunun 24-cü kilometrliyində, Ceyranbatan qəsəbəsi ərazisində şəhid olmuş sumqayıtlı alimlər – İbrahim İbrahimovun, İsmayıl Mirsaqulovun və Svetlana Məmmədovanın xatirə abidəsi də ziyarət edilib.

# Gəncədə 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

20 Yanvar faciəsinin 32-ci il dönümüdür. Gəncədə Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda həlak olan şəhidlərin xatirəsi ehtiramla yad edilib. Şəhidlər Xiyabanında təşkil olunan anım mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Quru Qoşunlarının qərərgah rəisi, general-mayor Vasif Kazımov, Türkiyə və Gürcüstanın Gəncədəki baş konsulları, ictimaiyyət nümayəndələri, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri və sakinlər iştirak ediblər.



Əvvəlcə Şəhidlər Xiyabanının girişində "Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə itkin düşmüş şəxslərin xatirəsinə" inşa edilmiş və üzərində 100-ə yaxın şəxsin adı qeyd edilmiş lövhənin önünə güllər düzülüb, Gəncən şəhidlərinin şəkillərinin əks olunduğu lövhəyə baxış keçirilib.

Niyazi Bayramov və general-leytenant Ənvər Əfəndiyev "Əbədi məşəl" abidəsini ziyarət edib, önünə əklil qoyub, şəhidlərin ruhuna hörmət və ehtiramlarını ifadə ediblər. Abidə digər mərasim iştirakçıları tərəfindən də ziyarət olunub.

Daha sonra 20 Yanvar faciəsinin 32-ci ildönümünü ilə bağlı keçirilən ümumşəhər tədbirinin rəsmi hissəsi başalyıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub.

Qeyd olunub ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Bu qanlı gün həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Vurğulanıb ki, 20 yanvar 1990-ci il müasir tariximizin ən faciəli günlərindən biri olsa da Azərbaycan xalqının milli iradəsinin zəfər çaldığı gün kimi tarixdə qalacaq!

Bütün Respublika ərazisində olduğu kimi, saat 12:00-da Gəncədə də şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillər vasitəsilə səs siqnalları verilib.

Niyazi Bayramov daha sonra şəhid ailələri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb. Səsləndirilən müraciətlərin bir çox yerindəcə öz həllini tapıb.

# Yanvarın 19-da Suraxanı Rayon İcra Hakimiyyətində 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərə ərzaq yardımı göstərilmişdir



Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı vətənin müdafiəsinə qalxmış, haqsızlıq və ədalətsizliyə qarşı öz haqq səsini ucaltmış dinc əhalinin amansızcasına qətlə yetirildiyi faciənin yalnız Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri dəyərlərə, humanizmə qarşı törədilən bir cinayət olduğunu bildirmişdir. Həmçinin qeyd etmişdir ki, o dövrlərdə bütün çətinliklərə baxmayaraq Moskvada yaşayan xalqımızın dahi oğlu, Ümummilli Lider Heydər Əliyev faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənlərə qarşı kəskin bəyanatla çıxış etmiş, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırmışdı. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pisləmişdir.

RİH başçısı Əziz Əzizov ölkə başçımız cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa diqqəti sayəsində 20 Yanvar hadisələri iştirakçılarının və şəhid ailələrinin daim dövlət qayğısı ilə əhatə olunduğundan, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən, eləcə də, 44 günlük Vətən müharibəsində qazandığımız Şanlı Qələbədən söz açmışdır.

# Samux rayonunda "20 Yanvar" şəhidlərinin xatirəsi ehtiramla anıldı




dar Samuxda qeyd olunan hüzn günü tədbirinə minlərlə sakin qatılmışdı. Xalqımızın yaddaşına, böyük izdihamla qeyd olundu.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri səhər saatlarında əvvəlcə, YAP Samux rayon təşkilatının foyesində təşkil edilmiş "20 Yanvar" şəhidlərinin xatirəsinə həsr edilmiş, məktəblilərin əl işlərindən ibarət rəsm sərgisini ilə tanış oldular. Sonra tədbir iştirakçıları Samux şəhərindəki şəhidlər kompleksini ziyarət etdilər. Şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələri qoydular.

Saat 12:00-da Samux şəhər ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillərdən faciə qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq səs siqnalları verildi.

Samux Cümə məscidinin axundu şəhidlərin ruhuna dualar oxudu.

www.arsivakurdi.org

Baş redaktordan:

# QANLI YANVAR DEYİL, ŞANLI YANVAR – AZADLIQ DASTANI



Hərdən biz ata-babalarımızın nəsihətləri-ni unuduruq, özü də tez unuduruq.

Babam Kürd Musa, ömrünün sonuna, yəni 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətinin Xalisa kəndində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət bir millət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata kecirəcəklər.

O, qeyd edirdi," Mən ona qədər ermənimusəlman davası gormuşəm. "İtlə yoldaş olanın zopası əlində olmalıdır", deyə" bizə nəsihət verərdi.

İllər keçdikcə bu sözlərin müdrikliyinin şahidi olduq. Şovinistlərin fitvası ilə erməni daşnakları Azərbaycanın əzəli yerləri olan Dağlıq Qarabağ torpaqlarının işğalına başladı. Və düz 32 il bundan əvvəl -1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının başına gətirilən faciələrin ən dəhşətlisi gətirildi. Vətənin istiqlalı və milli azadlığı uğrunda mubarizəyə qalxan, qəlbindəki vətən sevgisindən başqa heç bir silahı olmayan əliyalın, günahsız insanlar, təpədən dırnağa qədər ən muasir silahlarla silahlanmış,azğın erməni daşnaklarının və Sovet imperiyası qoşunlarının amansız vəhşiliyinin qurbanı oldular. Gullu-cicəkli Bakımızın qara asvalt yolları, xalqımızın azadlığı uğrunda mubarizəyə qalxan, igid oğlan və qızlarmızın qanı ilə boyandı. Xalqımız öz suverenliyi uğrunda mubarizədə ilk şəhidlərini verdi. Paytaxtın Azadlıq meydanından Şəhidlər Xiyabanına qədər qırmızı qərənfillərlə şəhidlərə misli görünməmiş "çələng" hörüldü, matəm çələngi.



Onlar öz ölümləri ilə əbədi ölməzlik qazandılar.

Şəhidlər Xiyabanı vətən yolunda canlarını fəda vermiş oğul və qızlarımız üçün əbədi mənzil oldu. Al-qırmızı qərənfillər Şəhidlər Xiyabanının rəmzinə çevrildi.

Bünövrəsi qanla qoyulan bir quruluşun sonu, qanla da bitməli idi. Belə ki,1986-cı ildə Alma- Atada qazax xalqının qırğını, 1988-ci ildə Fərqanə hadisələri,1989-cu ilin aprelində Tbilisi qətliyamları, 1990-cı ilin yanvarında Bakıda, 1991-ci ildə Vilnus şəhərində qanlı qırğınlar torədildi. Təəssuf ki, Moskva və Bakıda oturan satqın rəhbərlərin hazırladığı cinayətkar planlar həyata keçirildi. Bakı əhalsi dəhşətli səhnə ilə üzüzə qaldı. Sinəsi güllələrdən deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpədici nalələrin sədası ərşə qalxırdı. 20 Yanvara açılan səhərdə 130-dan artıq şəhid, 700-dən artıq yaralı qana boyandı. Bu hadisələri gizlətməyə çalışan dovlət rəhbələrinin əksinə olaraq, Moskvada yaşayan və işləyən Ulu Ondər Boyuk Heydər Əliyev etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxması üçün bəyanatla çıxış etdi. Bu, təkcə siyasi partiya üzvünün deyil, uzun müddət Sovet rəhbərlərindən biri olmuş qorxmaz bir şəxsiyyətin cəsarətli hərəkəti idi. Xalq heç vaxt yanılmır, ona görə də gec də olsa qardaş qırğınının vaxtında qarşısının alınması üçün Azərbaycanın xilaskarını Bakıya gətirdi və qısa zamanda yarana biləcək vətəndaş müharibəsinə və hərc-mərcliyə bir güllə atılmadan son qoyuldu. Xalqımızın, Azərbaycanımızın azadlığı uğrunda canlarını qurban verənlərə mərkəzi Moskva hökuməti terrorist adı versə də, məhz Ulu Öndər Böyuk Heydər Əliyevin tarixi xidmətidir ki, 20 Yanvar qırğını Ümummilli faciə səviyyəsinə qaldırıldı və ona hüquqi-siyasi qiymət verildi. Ulu Öndər Boyuk Heydər Əliyev şəhidlərin ruhunun yad edilməsinə həmişə böyük diqqət yetirərdi. Onun şəxsən şəhidlər üçün abidə kompleksinin tikdirməsinə nəzarət etməsi, xalq tərəfindən xüsusi qiymətləndirilmişdir. Bu, xalqın gələcəyi üçün atılan mühüm bir addım idi.



İnanırıq ki, 20 Yanvar qəhrəmanları heç vaxt unudulmayacaq, Şəhidlər Xiyabanı xalqımızın inanc yeri və ziyarətgahı olmuş və hər zaman olacaqdır. Ancaq təsəlli ondadır ki, Vətənimiz və xalqımız uğrunda tökülən qanın hesabına Azərbaycanımız azad, Vətənimiz müstəqildir. Azərbaycan xalqı öz müdrik Lideri Ulu Öndər Böyük Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyini əldə etmişdir. Xalqımız yaxşı bilir ki, Ulu Öndər Böyük Heydər Əliyev siyasətini inamla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev cənabları daxili və xarici siyasəti nəticəsində olkəmizi öndə gedən ölkələr sırasına cıxarmaqla xalqımızın və vətənimizin qarantı olduğunu əməli işi ilə isbat etmişdi.

## T A R İ X

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb cıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı idi. 20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi.



Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mubarizəyə qalxmış bir xalq, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli güllələri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. Azərbaycanın butun rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Bakıda keçirilən matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu Azərbaycan xalqının azadlıq səsi, haqq, ə d a l ə t, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi. 20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və i n f o r m a s i y a blokadasına salınmışdı,radio, televiziya susdurulmuş, onun enerji bloku silahlı hərbiçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Azərbaycan sakit və ölü bir dənizə bənzəyirdi. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir gunahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olmuşdur. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi.



Xalqın bu ağır günlərində, yanvarın 21-də Ulu Öndər Böyük Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nuümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bu tarixi cıxışın mətni dünyaya, respublikaya geniş əkssəda vrdi. Xalqın qəlbində ümid çırağı yandı.

1993-cu ildə Ulu Öndər Böyük Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atıldı. 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolu, bu faciənin əbədiləşdirilməsi və bütün dunya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülmüşdür. Ümummilli liderin 1994-cu il yanvarın 5-də, 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclis 1994-cu il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Bununla da Prezident Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi. Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi Məşəl" abidə-kompleksi də Ümummilli lider Böyük Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir.

Azərbaycan Prezidentinin 2000-ci il, yanvarın 17-də imzaladığı Fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

Bu gun Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini cox boyuk hörmət və ehtiramla əziz tutur, onların igidliyini yuksək qiymətləndirir. Şəhidlərimizin qanı bahasına qazanılan, müstəqilliyimizi qanımızla və canımızla qorumalı, Ümummilli liderimiz Böyük Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

Bəli şəhidlərimiz qanları ilə Xalqımıza Şanlı tatix yazdılar, ŞANLI YANVAR-AZADLIQ DASTANI.

***Tahir Suleyman***



Bəxtiyar Vahabzadə

## Şəhidlər

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər...

O şənbə gecəsi, o qətl günü,-
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb söküb Şəhidlər...




Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə bizdə.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi Şəhidlər...

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi Şəhidlər...

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu Ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi Şəhidlər...

Dözdü hər zillətə, dözdü hər şeyə,
"Dünyada mənimdə haqqım var " ,- deyə
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi Şəhidlər...

İnsan insan olur öz hünəriylə.
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.

***ALLAH bütün Şəhidlərə Rəhmət eləsin...!!!***

# «20 YANVAR MÜSTƏQİLLİYİMİZİN ŞƏHİDLİK ZİRVƏSİDİR»



Tariyel Cəlil

20 Yanvar Azərbaycan vətəndaşının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi həkk olunmuş bir tarixdir. Məhz bu tarixdə, 1988-ci ildən başlamış xalq hərəkatı özünün kulminasiya nöqtəsinə çatdı və Azərbaycanın yüzlərlə qəhrəman oğulları bu yolda, azadlıq və müstəqillik uğrunda şəhid olaraq gələcək nəsillərə istiqlaliyyət və azadlıq bəxş etdilər.

Bəli, 20 Yanvar gecəsində minlərlə Azərbaycan övladını meydanlara, silahlı rus qəsbkarlarının qarşısına çıxaran qəlblərində gəzdirdikləri doğma torpağın bütövlüyü, toxunulmazlığı və azadlıq arzusu idi. Bu facie bizə müqəddəs bir and yeri miras qoydu. Doğma Bakımızın Dağüstü parkı kimi tanınan məkan Şəhidlər Xiyabanına döndü.

Azərbaycan xalqı şəhidlik zirvəsinə ucalan oğul və qızlarını hər an hədsiz ehtiramla yad edir və daim yad edəcəkdir. İndi hər bir azərbaycanlı lazım gələn anda 20 Yanvar şəhidlərinin getdiyi şərəfli yolu təkrarlamağa hazırdır. Müstəqil dövlətimizin və dövlətçiliyimizin qarantı da, məhz milli qürurunu, vətəndaşlıq qeyrətini hər şeydən üstün tutan belə oğulların varlığıdır.

Ulu öndər 20 Yanvar hadisələrinə ilk siyasi qiymət verərək bu faciəni törədənlərin kimliyini dünya ictimaiyyətinə çatdırdı. O ağır günlərdə xalqı ilə həmrəy oldu, xalqın sınmış inamını özünə qaytardı. İnsan üçün ən müqəddəs şəxs onu dünyaya gətirən anadırsa, onu müqəddəsliyə bağlayan vasitə Vətən torpağıdır. Çünki ana öz övladını onun özü üçün də müqəddəs olan Vətən torpağında dünyaya gətirir. Vətən bizim şöhrətimiz, qeyrətimiz, ülviyyətimizdir. İnsan üçün ən ümdə olanı Vətən torpağının azadlığı və toxunulmazlığıdır. Azadlıq heç kimə xoşluqla verilmir. Azadlıq qanla, canla qazanılır, qorunur və gələcək nəsillərə əmanət verilir. Azərbaycan xalqı da əsrlərlə azadlıq uğrunda çarpışmış, istiqlal naminə mübarizə aparmışdır.

Azərbaycan bizə ulu babalarımızın müqəddəs əmanəti, ərmağanıdır. Bu torpağın hər bir qarışı ölüm-dirim çar- pışmalarında şəhid olmuş ata-babalarımızın qanından yoğrulmuşdur. Odur ki, bu gün damarlarında ulu babalarımızın qanı axan hər bir azərbaycanlı torpağını, azadlığını qanları, canları bahasına qorumağa hazırdır. Ulu öndərin layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan ordusunun daha da qüdrətlənməsi, ən müasir döyüş silahları ilə təchiz edilməsi üçün həyata keçirdiyi siyasətin nəticəsidir ki, bu gün Milli Ordumuz düşmənin hər hansı bir təcavüzünə layiqincə cavab verməyə qadirdir.




İnanıram ki, biz, şəhidlərin ruhunu sevindirəcək, onların səpdiyi azadlıq toxumunun cücərtilərini göyərdəcək, Qarabağ torpağını, eləcə də işğal altında olan bütün torpaqlarımızı düşməndən azad edəcək, şəhidlərimizin qisasını alacağıq. Azərbaycanı bir daha dünyaya layiqincə tanıdacağıq.

## YATMA OYAN, QALX AYAĞA, MİLLƏT OY

Vətənimiz parçalanıb dağıldı,
Dərd içindən dərd gücərib doğuldu.
Həyatımız başdan- başa nağıldı,
Vətən dağı dərd boxçamdı aman oy,
Bizə yaman qənim oldu zaman oy.

Xocalıdan axan qanlar silinmir,
Cəbrayılım harda qalıb bilinmir,
Qubadlımın Nəbi nəsli görünmür,
Cavanşirim, Qoç Koroğlum, Nəbim oy,
Görən yoxmu, indi belə əmim oy.

Fizuli, Zəngilan, Cəbrayıl hanı,
Görən kim siləcək tökülən qanı.
Ey millət özünü, özünü tanı,
Yatma oyan, qalx ayağa millət oy,
Bəsdi yetər çəkdiyimiz zillət oy.

Ağdamın ağ bəxdi qaraya döndü,
Günahsız Vətənin ocağı söndü,
Qürurlu millətin qüruru sındı,
Alllah, yoxmu bu dərdlərə çaran oy,
Haqsız yara, sının yaran, yaran oy.

Ümüdümüz günü-gündən nazilir,
Kür Araza həsrət-həsrət süzülür.
Heç bilmirəm bu dərd necə dözülür,
Yüz illərlə qan gölündə üzdüy oy,
Axı niyə bu dərdlərə dözdüy oy.

Düşmənlərin niyə başı əzilmir,
Kədər badəsinə sevinc süzülmür,
Dərdin düyçəsindən həsrət çözülmür,
Dərələyzim, çözülməyən düyçəm oy,
Təbrizim oy, Zəngəzurum, Göyçəm oy.

Dərdin xırmanında üyünür dənim,
Dünyanı bürüdü dumanım, çənim.
Celiləm, taftanır şərəfim, mənim,
Dəlidağda elsiz qalan daşam oy,
Qanadları dibdən sınmış quşam oy,
Laçınım oy, Kəbəcərim, Şuşam oy!

## QƏRƏNFİL YAĞIŞI

20 yanvar 1990-cl il tarixdı,o qanlı şənbə günündə meydanlar,səkilər,yollar hamısı qırmızı qərənfillərlə örtülmüşdür.Bakı küçələrində yağan qərənfil yağışından yerə ayaq qoymaq mümkün deyildi...Bütün Bakı qərəbfil yağışına qərq olmuşdu.Bu əsil möcüzə idi. Dünyanın yeni möcüzəsi! Dünyanın dərd dolu qərənfil yağışı möcüzəsi.

* * *

Allah, hardan yağdı belə bir yağış?
Al qana bürüdü bütün hər yeri.
Allah,hardan gəldi elə bu qargış?
Dünya görməmişgi bu dərdi-səri.

Yağdı səkiləri,yağdı yollara,
Qərənfil altında yanırdı hər yan.
Çiçək yağışından,gül yağışından
Yağdıqca,alışıb yanırdı insan...

Yağdırıb göylərdən qərənfilləri,
Nə bəla gətirdi bizlərə bu qış!
Yer üzü Adəmlə Həvvadan bəri,
Hələ görməmişdi belə bir"yağış"...

Ellərin əkdiyi al Qərənfillər,
Əllərdə od tutub yanırdı bu gün.
Həvəslə görüşə dərilən güllər,
Şəhidlər üstünə yağırdı bu gün...

Könüllər oxşayan gül ikən bir vaxt,
Bu gün leysan olub yağdı qərənfil.
O qədər yağdı ki,sel olub,Allah,
Qanlı məzarlara axdı qərənfil!..

Bu yağış beləcə bir yağış idi,
Bu yağış ah-nalə,bir qargış idi...
Yer üzü görmsin belə qanlı qış,
Göy belə gurlayıb-çaxmasın heç vaxt.
Yağsın yer üzünə nur yayan yağış,
'Qərənfil yağışı"yağmasın heç vaxt!



***MÜRVƏT QƏDİMOĞLU HƏKƏRİ***

## 20 YANVAR

Gözlənilməz bir gecədə,
Qətliam elədilər.
Kiçik böyük demədən,
Tank tüfənklə əzdilər.

Vəhşicə oldu bunlar,
İnsanları vurdular,
Çox canları yaxdılar,
20 yanvar günündə.

Dəhşətli bir gecəydi,
Qanlıydı, faciyəydi.
Bunlar əsl vəhşiydi,
20 yanvar günündə.

İgid övladlarımız,
Bacı-qardaşlarımız
Dirənibdi xalqımız
20 yanvar günündə.

Onurlu savaş verdik,
Zülmə boyun əymədik,
Onurumuzu qoruduk,
Qanlı yanvar günündə.
20 yanvar günündə...

Qeyd:bu şeiri indicə yazdım, ALLAH cəmi şəhidlərimizə rəhmət eləsin Amin.



***Fəsih Alıoğlu***

467:1.QXD 23.01.2022 0:57 Page 6



# Qəhrəmanlıq və iftixar tariximiz



***Müşfiq Məmmədli, Milli Məclisin deputatı***

Tariximizə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 20 Yanvar hadisələrindən otuz iki il ötür. Xalqımızın haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi həmin gün Azərbaycanda müdhiş cinayətə əl atdı. Bakıda və respublikamızın regionlarında həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, xalqımıza qarşı qətliam həyata keçirildi.

Bu hadisə öz milli haqqı uğrunda ayağa qalxan xalqımızı öz yolundan döndərmədi, əksinə onu yumruq kimi birləşdirdi, daha sıx həmrəy etdi. Bu mənada tariximizə həm də milli qürur günü kimi həkk olunan 20 yanvar hadisələri azadlığı uğrunda mübarizə aparan Azərbaycan xalqının məğrurluğunu, vətənpərvərliyini dünyaya, o cümlədən o vaxtkı SSRİ rəhbərliyinə aydın şəkildə çatdıra bildı. Həmin gün baş verənlər Azərbaycan adlı bir dövlətin varlığını bir daha dünyaya bəyan etməklə yanaşı, həm də sovet imperiyasının çöküşündə əsas amillərdən biri oldu.

Xalqımıza və insanlığa qarşı törədilən cinayət nəinki keçmiş sovet ittifaqında, o cümlədən bir çox ölkələrdə geniş əks-səda doğursa da, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçdilər. Çünki xalqımıza qarşı törədilənlərə laqeyd münasibətlərini ortaya qoyaraq sovet rəhbərliyinin qəzəbinə tuş gəlmək istəmirdilər. O ağır və faciəli günlərdə Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən Heydər Əliyev oldu. Heydər Əliyev vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Baş verən hadisələri hüquqa, demokratiyaya, hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarından sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalqımız öz gələcəyini yalnız Azərbaycanın müstqilliyini bərpa etməsində gördü. Bu hadisədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi və tezliklə xalqımız dövlət müstəqilliyini bərpa etdi.

Sovet hakimiyyəti dövründə məlum səbəblərdən 20 yanvar faciəsinə əsil qiymətini vermək mümkün deyildi. Lakin ulu öndər Heydər Əliyev hələ sovet hakimiyyəti dövründə böyük cəsarətlə Naxçıvan Ali Məclisində 20 yanvar faciəsinə siyasi qiymətin verilməsinə nail oldu. Lakin ulu öndərin hələ totalitar rejimin dövründə başlatdığı bu işi müstəqilliyimizin ilk illərində hakimiyyətdə olanlar dövlət səviyyəsində davam etdirmədilər. Belə ki, hələ sovet dövründə 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən AXC hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu, iqtidarda olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün cəhd belə göstərmədi. 1993-cü ilin yayına qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

1993-cü ildə xalqın istəyi ilə hakimiyyət sükanının arxasına keçən ulu öndər işlərinin çoxluğuna baxmayaraq 20 Yanvar faciəsinin günahkarlarının araşdırılmasına diqqət ayırdı. Heydər Əliyevin «20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında» Fərmanında Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bununla da 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı, bu cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərini xatirəsini hər zaman yüksək ehtiamla anır. Ulu öndər Heydər Əliyev tərəfindən 1998-ci ildə“20 Yanvar Şəhidi” fəxri adı təsis edilib. Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. Həmçinin Şəhidlər Xiyabanında yüksək səviyyəsi təmir və yenidənqurma işləri aparılıb, paytaxtın “20 Yanvar” dairəsində şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılıb.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il yanvarın 20-də onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

# Dövlətimizin başçısının Zəngəzurun tarixi barədə fikirləri Azərbaycanın bu məsələdə mövqeyi ilə bağlı ermənilərə çox mühüm mesaj oldu



***Əziz Ələkbərli, Milli Məclisin deputatı***

Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycanla Ermənistan arasında münasibətlərin bir sıra məqamlarına aydınlıq gətirdi. Bu məqamlar sırasında Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh sazişi ön sırada durur-du. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfinin təklifi hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanımasından, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilməsindən, kommunikasiyaların açılması prosesinə başlanılmasından və sülh müqaviləsi imzalanmasından ibarətdir. Azərbaycan Prezidenti onu da xatırlatdı ki, hərçənd, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər. Təbii ki, bu məsələ təsadüfən xatırladılmadı. Təcrübə də göstərir ki, ermənilər bu və ya digər imzanın məsuliyyətindən asanlıqla qaçırlar. Biz bunu Ermənistan tərəfinin imzaladığı 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar bəyanatlarına münasibətində də gör-müşük. Amma bölgədə sülhün yaranması üçün bu gün ciddi addımlar atılmalıdır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib.

Deputat deyib ki, Ermənistan sülh müqaviləsinin imzalanmasının ölkələrin bir-birinin ərazi bütövlüyünü tanımasından keçdiyini yaxşı başa düşür. Ermənilər isə buna hazır deyillər. Niyə? Təkcə ona görəmi ki, bununla Qarabağ iddialarından tamam imtina etmiş olurlar? Məncə, təkcə buna görə yox. 70 illik sovet dönəmində Ermənistan qanunsuz olaraq Azərbaycanın müxtəlif bölgələrindən kifayət qədər əlavə ərazi ələ keçirib, indi o torpaqlar da Azərbaycana geri qaytarılmalıdır. Ermənistan hakimiyyəti həm də bundan qorxur. Amma onu da başa düşməlidir ki, delimitasiya məsələsi həll olunmayacağı təqdirdə, Azərbaycan bu məsələni təkbaşına və öz bildiyi kimi həll edə bilər. Bu isə Ermənistan üçün daha böyük itkilərlə nəticələnə bilər. Prezident İlham Əliyev müsahibəsində buna açıq işarə də vurdu: “Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var. Amma buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə biz buna hazırıq. Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq”.

“Zəngəzur dəhlizi məsələsi 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan-Ermənistan münasibətlərinin ana xəttini təşkil edir. Prezident İlham Əliyev bir müddət əvvəl bildirmişdi ki, Ermənistan tərəfi istəsə də, istəməsə də, Azərbaycan bu dəhlizi açacaq, xoşluqla qoymasalar, zorla açacağıq. Yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı bu fikrini bir daha səsləndirdi. Əlavə etdi ki, Azərbaycan hazırda Zəngəzurun hava məkanından istifadə edir, həm də Ermənistandan icazə almadan istifadə edir. Çünki bu, beynəlxalq dəhlizdir və ondan istifadə etmək Azərbaycanın suveren hüququdur. Hətta Prezident İlham Əliyev bu məkanı Zəngəzur dəhlizinin hava versiyası adlandırdı. Bildirdi ki, son zamanlar Ermənistan tərəfi, nədənsə, Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır. Əlavə etdi ki, “Zəngəzur dəhlizi” ifadəsini siyasi leksikona o gətirib və bu gün bu ifadə beynəlxalq leksikona daxil olub.

Həmişə olduğu kimi, Zəngəzur məsələsində də Prezident İlham Əliyev qarşı tərəfə yenidən dərs verdi. Bildirdi ki, onun bu dəhlizi “Zəngəzur dəhlizi” adlandırmasının obyektiv səbəbi, siyasi-tarixi əsası var. Birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır: Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı – hansı ki, ermənilər indi Razdan adlandırırlar, – Azərbaycan toponimidir”. Bəlkə də Azərbaycanda çox az adam bilir ki, Qərbi Azərbaycanda Zəngəzur toponimi ilə eyniköklü Zəngi hidronimi var və indi bu hidronim Razdan adını daşıyır. Bu bir kəlmlik informasiya ilə Prezident İlham Əliyev milli dəyərlərimizə sahib çıxmağın çox gözəl nümunəsini göstərdi. Elə hesab edirəm ki, bu mesaj özünün lazımi ünvanına çatmış oldu”, - deyə Ə. Ələkbərli vurğulayıb.

Deputat əlavə edib ki, Prezident İlham Əliyevin “Zəngəzur dəhlizi” anlayışına verdiyi yeni məzmun da diqqətəlayiqdir: “Biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin. Bir xətt Qafandan, bir xətt Mehridən keçə bilər. Bir xətt Qarakilsədən keçə bilər, onlar Sisyan adlandırırlar. Ona görə Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir”. Bu, artıq “Zəngəzur dəhlizi” anlayışına yeni və tamamilə haqlı yanaşmadır və bütün mahalın gələcək taleyinə hesablanmış yanaşmadır. Dövlətimizin başçısının Zəngəzurun tarixi barədə fikirləri Azərbaycanın öz mövqeyində nə qədər ciddi olması yönündə ermənilərə çox mühüm mesaj oldu.

www.arsivakurdi.org

467:1.QXD 23.01.2022 0:57 Page 7
www.arsivakurdi.org



# Qafqazda Şəddadi Kürd dövləti

**(Əvvəli ötən saylarımızda)**

Şübhəsiz ki, Şəddadilər dövlətində "əmir" adlanan hökmdardan başqa, ölkənin maliyyə-inzibati işlərini idarə etmək üçün digər vəzifələr də olmuşdur. Xüsusilə, o zamanın bütün Orta Şərq və Azərbaycan feodal dövlətlərində olduğu kimi, Şəddadilər dövlətində də vəzir vəzifəsi mövcud idi. Qətranın mədh etdiyi şəxslərdən biri də Arranda yaşamış və Ləşgərinin yanında olan Əbülmüəmmər Qasımdır. Qətran Əbülmüəmmər Qasımı bilikli, cəsarətli bir adam kimi tərifləyərək ölkənin abadlaşması və xalqın asayişini ondan tələb edir. Qətran yazır ki: "Əbülmüəmmər pəhləvan, elm və dinin günəşidir". Qətranın qəsidəsində Əbülmüəmmərin tutduğu vəzifə aydın deyil. Lakin Kəsrəvi onu "ustad" adlandırır və Ləşgərinin vəziri, köməkçisi olduğunu təsəvvür edir. Kəsrəvi qeyd edir ki, o zamanın vəzirlərinin bir çoxu həm cəsur, həm məlumatlı, həm də dərin biliyə malik olmuşlar (Kəsrəvi Təbrizi. Göstərilən əsəri, III cild, səh. 26-27) II Ləşgərinin dövründə baş verən müharibələr haqqında bilavasitə məlumat verən mənbələr yoxdur. Lakin yuxarıda qeyd etdiyimiz "Şəddadilər" fəslində göstərilir ki, Ləşgərinin hakimiyyəti dövründə onun özü və ölkənin əhalisi sakit olmadı. O zaman oğuzlar Rəvvadilər dövlətinə, habelə Arrana hücum və basqın edirdilər. Bundan başqa, Qətran Təbrizinin Ləşgəriyə ithaf etdiyi qəsidələrdən göründüyü kimi Ləşgəri Fəzl kimi gürcü və erməni hakimləri ilə bir neçə müharibədə iştirak edərək qələbə çalmışdır (Qətran Təbrizi. Divan). Zərər və ziyanlar görmüş Fəzlin və Məmlanın intiqamını onlardan almışdır. Qətranın qəsidələrini birində göstərilir ki, Ləşgəri "bir qoşunu elə qırdı ki, onu ölüm qıra bilməzdi, bir qalanı elə qopardı ki, onu fələk qopara bilməzdi ". "Əgər Fəzlunun qoşunu həmin yerdə yıxılmışdısa. o düşmənin şahını da həmin yerə yıxdı və arzularının düşmənini yerə sərdi". Qətran bu qəsidələrdə Ləşgəri qoşunlarının şücaət və müharibələrin necə aparılmasından bəhs edərək onu bədi tərzdə təsvir edir. Qətran göstərir ki, "Cahan padşahı müharibə etməyə bel bağladı". "Ağac yarpağından, yağmur damlalarından artıq, malmülk ilə qoşun topladı". Düşmən padşahının "atlıları tamamilə erməni və abxaz pəhləvanları idi, onların piyadaları ləzgi və Şirvan igidlərindən ibarət idi". Onlar "Arran şahı ilə dağ kimi üz-üzə gəldilər". Qətran qəsidəni davam etdirərək yazır ki, "Cahan padşahın bayrağı çöldə zahir olunca, qoşunlar içəridə tək-tək iki-iki gizlənməyə başladılar". "Padşah qalibiyyət ilə oradan çıxdı". Ləşgəri oradakı meşənin ətrafında şadlıq etdikdən sonra, düşmənin yurdunu dağıtmağa və yandırmağa getdi. Burada göstərilir ki, düşmən qoşunları çox yüksək bir dağın başında idi. Ləşgərinin qoşunları onları aşağı enməyə məcbur edib, ürəklərini qılıncla yumşaltdılar. Onların ürəkləri oxlara nişan oldu. "Zamanın




şahı onların əmirlərini əsir etdi". Qətran qeyd edir ki, düşmən qqoşunu sayca çox olmasına baxmayaraq məğlub oldu. Ləşgəri "din tacını Günəşə qaldırdı". Qətran Təbrizininbədii şəkildə təsvir etdiyi bu tarixi hadisə haqqında bir sıra müəyyən olmayan və qaranlıq qalan cəhətlər də vardır. Kəsrəvi təəccüblə qeyd edir ki, gürcü və erməni tarixlərində Qətranın təsvir etdiyi bu hadisələr haqqında məlumat yoxdur (Kəsrəvi Təbrizi. Göstərilən əsəri, III cıld, səh. 20). Bizcə, Qətranın şer şəklində, bədii tərzdə təsvir etdiyi tarixi hadisələr inandırıcıdır. Lakin onların bəzilərində bədii təsvirin tələbinə görə mübaliğəyə yol verilmişdir. Gürcü və erməni tarixlərində bu hadisənin təsvir edilməməsinin səbəbləri də tamamilə aydındır. Bir qayda olaraq orta əsr gürcü və erməni tarix yazanları öz feodallarının məğlubiyyətləri haqqında məlumat verməkdə ehtiyatlı davranmışlar. Burada da Qətran Təbrizinin göstərdiyi kimi, görünür qoşun başçısı əsir düşdüyü və məğlubiyyətə uğradığı üçün orta əsr salnaməçiləri bu hadisəni yazmaqdan imtina etmişlər. II Ləşgərinin Tiflis hakimi əmir Cəfər ilə ittifaqda olduğu zaman gürcü çarı Baqratla müharibə etməsi haqqında Qətranın əmir Cəfərə ithaf etdiyi qəsidə də məlumat verilir. Bu qəsidədə göstərilir ki, Ləşgəri "Qiyamətə qədər ondan üz çevirməz", "onun xidmətindən ötrü Arran padşahı dava üçün öz qoşunlarını hazırlayaraq yola saldı". Qətrana görə bu müharibə azər ayında başladı və bunun nəticəsində "onların qoşununu darmadağın edib, bütün torpaqlarını tamamilə alt-üst etdilər". Ona görədə Qətran Ləşgəriyə müraciət edərək deyir: "Mərhəba, ölkə fəth edən, düşməni əsir tutan, mərhəba, müzəffər, qalib baxtlı, xeyir ulduzu ". Məlum olduğu kimi, Baqrat Tiflisi mühasirə etdiyi zaman, Tiflis hakimi Cəfər ibn Əli Ləşgəri ilə ittifaq yaratmışdı. Baqrat yaranan vəziyyətdən qorxaraq Cəfərlə sülh etməyə məcbur olmuşdu. İbn əl-Əsir "abxazların Tiflisi mühasirə etmələri və onların geri çəkilmələri haqqında" məlumat verərək yazır ki, "429 (1037/8)-cu ildə Abxaz çarı Tiflisi mühasirə etdi, ancaq əhali ona möhkəm müqavimət göstərdi, lakin o, mühasirəni davam etdirdi və sıxışdırdı. Şəhər əhalisi ərzaq və sair ehtiyat şeyləri qurtaranda Azərbaycana adam göndərərək müsəlmanlardan kömək və hərbi yardım istədilər. Lakin abxazlar oğuzların Azərbaycana gəldiklərini və onların ermənilərlə necə rəftar etiklərini eşitdikdə bərk qorxdular və Tiflisdən geri çəkildilər". (İbn əl-Əsir. Göstərilən əsəri, IX cild, səh. 170). Göründüyü kimi, İbn əl-Əsir Baqratın Tiflis mühasirəsindən vaz keçməsini oğuzların hücumları ilə izah edir. Qətran Təbrizi isə, yuxarıda göstərdiyimiz kimi Ləşgərinin Tiflis hakimi Cəfərlə ittifaq yaradaraq abxazların üzərinə hücum edib onları məğlub etdiyini göstərir. Bizcə, hər iki müəllifin göstərdiyi amilləri qəbul etmək olar. Çünki bunlar biri digərini inkar etmir, əksinə tamamlayır. Bundan başqa, Qətran Təbrizinin şerlərindən aydın olur ki, II Ləşgəri gürcü çarı ilə iki dəfə müharibə etmiş və hər iki müharibədə qələbə çalmışdır.

II Ləşgərinin hakimiyyəti dövründə Azərbaycana oğuzlar, səlcuqlar hücuma keçmişdilər. Səlcuqlar 1038-ci ildə Nişapuru tutmuş, sonra İrana, İraqa və Kiçik Asiyaya hücum etməyə başlamışdılar. Toğrulun qardaşı İbrahim Yinal 440 (1048/49)-cı ildə rumlulara qarşı hücuma keçmişdi (İbn əl-Əsir. Göstərilən əsəri, IX cild, səh. 203). Lakin bizim istifadə etdiyimiz "Cami əd-düvəl" əsərinin "Şəddadilər", "Tarix əl-Bab və Şirvan" fəsillərində, habelə Qətran Təbrizinin qəsidələrində türklərin, oğuzların II Ləşgərinin hakimiyyəti dövründə Gəncəyə hücum etdikləri haqqında məlumay verilmir. Münəccimbaşının "Cami əd-düvəl" əsərinin "Tarix əl-Bab və Şirvan" fəsli də "oğuz hücumları" haqqında çox ehtiyatla qeyd edilir. Lakin məlum olur ki, 437 (1045/46)-ci ildə Şirvanşah Qubad oğuz türklərinin qarşısını almaq üçün bir sıra tədbirlər görür: Şamaxı (Yəzidiyyə) şəhərinin ətrafına yonulmuş daşdan möhkəm hasar çəkdirir və dəmir qapı düzəltdirir (Münəccimbaşı Cami əd-düvəl. Tarix əl-Bab və Şirvan fəsli, səh. 56). Yuxarıda adı çəkilən mənbələrdə səlcuqların Gəncəni tutmaları, Azərbaycanı dağıtmaları haqqında məlumat verilmir. Ancaq 438 (1046/47)-ci ildə Kutalmış ibn ƏrslanYəbqu Gəncəni mühasirə edərək Ləşgərini geri çəkilməyə məcbur etmişdir (V, Minorski. Şəddadilər, səh. 48). yuxarıda təsvir edilənlərdən göründüyü kimi, II Ləşgərinin hakimiyyəti dövründə bir sıra hadisələr baş vermişdi. Ləşgərinin zərb etdirdiyi sikkə pulların nümunəsi zəmanəmizə qədər gəlib çatmışdır. 431 (1039/40)-cı ildə onun adına zərb edilmiş sikkə üzərində "Böyük əmir Əli ibn Musa əl-Ləşgəri" sözləri yazılmışdır. (Yenə orada, səh. 49) Qətranın şerlərindən aydın olduğu kimi Ləşgərinin Mənuçehr, Ənuşirvan, Qudərz və Ərdəşir adlı dörd oğlu var var idi. Ləşgəridən sonra bunlardan yalnız Ənuşirvan hakimyyət başına keçə bilmişdir. Qətran Ləşgəriyə ithaf etdiyi mədhnamədə yazır: "Rum ölkəsini və Gürcüstanı Mənuçehrin, Hindistanı və Türkistanı Ənuşirvanın ixtiyarına versin. O, İranın səltənət taxtında İstəxrdə otursun, özünün ən kiçik oğlunu isə Arran hökmdarı eləsin." Lakin Ləşgəri Qətranın arzu etdiyi kimi, göstərilən bu böyük ölkələri işğal edib oğulları arasında bölə bilmir. Münəccimbaşının göstərdiyinə görə, Ləşgəri 441 (1049/50)-ci ildə öldüyü zaman onun yerinə oğlu Ənuşirvanibn Ləşgəri keçir. (Yenə orada, səh. 18-19) Ənuşirvan yalnız iki ay hakimiyyətdə qalır. (Yenə orada, səh. 19) O kiçik olduğu üçün dövlətin işlərini idarə edə bilmir. Dövlət işləri hacib Əbu Mənsurun əlində idi.

**(ardı var)**





Səhifəni hazırladı: **Namiq Həsənov**

467:1.QXD 23.01.2022 0:57 Page 8
www.arsivakurdi.org



**“Azad olmaq üçün göy üzünü almağa gərək yoxdur. Ruhunuzu satmayın, yetər”.**
**Nelson Rolihlahla Mandela**

# AZADLIĞA GEDƏN YOL

**Hələ ki məlum deyil**
**Tarixdə kim qalacaq.**
**Ən mükəmməl əsəri**
**Zaman özü yazacaq.**
***Ədalət Bədirxanlı***

**(poema)**

## Proloq

Mən bir yol axtarıram -
Azadlığa gedən yol!
Bu yol haqqın yoludur; -
Ya öl, ya da azad ol!
Mən bu yolla gedirəm,
Haray çəkib deyirəm:
-Dünyada insanlara
Azadlıq istəyirəm!
Aləmdə cəmiyyətə,
Hər yerdə həqiqətə,
Cahanda hürriyyətə
Azadlıq istəyirəm!
Bəşəri düşünürəm,
